# SUVERENLİYİMİZİ TƏMİN EDƏNLƏR







## MƏHƏRRƏMOV MAYİS FÜZULİ OĞLU

Şəhid əsgər Mayis Füzuli oğlu Məhərrəmov 14 iyul 1982-ci ildə Naxçıvan şəhərində dünyaya göz açmışdır. 1988-1999-cu illərdə Naxçıvan Qarnizonunun tam orta məktəbində orta təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra 2000-2002-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki fəaliyyət göstərmişdir. 2002-ci ilin may ayından Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu olaraq yenidən ordu sıralarına qayıdıb hərbi xidmətini davam etdirmişdir.

Mayis Məhərrəmov 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xocavənd istiqamətində gedən döyüşlərdə düşmənləri darmadağın edərək böyük şücaət və igidlik göstərmişdir. Əsgər Mayis Məhərrəmov 20 sentyabr 2023-cü ildə Xocavənd rayonunun Çartar kəndində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Qəhrəmanımızın nəşi 26 sentyabr 2023-cü ildə Babək rayonunun Şıxmahmud kəndində torpağa tapşırılmışdır. Şəhidimiz ailəli idi, Fuad və Funda adlı övladları yadigar qaldı.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Mayis Məhərrəmov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir



## MƏHƏRRƏMOV CAVAD SADİQ OĞLU

Şəhid əsgər Cavad Sadiq oğlu Məhərrəmov 17 oktyabr 2003-cü ildə Lerik rayonunun Almu kəndində anadan olmuşdur. 2010-2019-cu illərdə ümumi orta təhsil alan Cavad Məhərrəmov 12 yanvar 2022-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Hərbi xidmət müddətində Komando kurslarına yazılmış və kursları müvəffəqiyyətlə bitirmişdir.

Qəhrəman əsgərimiz 2022-ci ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdiyi təxribat nəticəsində baş verən döyüşlərdə də iştirak etmiş, böyük igidlik göstərərək düşməni geri otuzdurmuşdur.

Nümunəvi hərbi xidmət edən Cavad 5 iyul 2023-cü ildə hərbi xidmətini başa vursa da sonradan Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu kimi hərbi xidmətini davam etdirirdi.

Cavad Məhərrəmov 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Döyüşlərdə düşmənləri darmadağın edərək böyük şücaət və igidlik göstərmişdir. Əsgər Cavad Məhərrəmov 20 sentyabr 2023-cü ildə döyüş tapşırığını yerinə yetirərkən ürəyindən aldığı snayper gülləsi nəticəsində qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhidimizin nəşi 22 sentyabr 2023-cü ildə doğulduğu Lerik rayonunun Almu kəndində torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Cavad Məhərrəmov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## MEHTİYEV ŞƏHRİYAR MÜBARİZ OĞLU

Şəhid əsgər Şəhriyar Mübariz oğlu Mehtiyev 7 yanvar 2005-ci ildə Daşkəsən rayonunun Zəylik kəndində anadan olmuşdur. Əslən Kəlbəcər rayonunun Bəzirxana kəndindən idi. Orta təhsilini aldıqdan sonra 2023-cü ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət etmişdir. Şəhriyar Zenit Raket Artilleriya Batareyasında manqa komandiri və topçu vəzifələrini nümunəvi bir şəkildə icra edirdi.

Şəhriyar Mehtiyev 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Döyüşlərdə düşmənləri darmadağın edərək böyük şücaət və igidlik göstərmişdir. Əsgər Şəhriyar Mehtiyev 20 sentyabr 2023-cü ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhidimizin nəşi 22 sentyabr 2023-cü ildə Göygöl Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Şəhriyar Mehtiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.



***Sevindik NƏSİBOĞLU,***
***11-ci sinif şagirdi,***
***şair-publisist, AJB üzvü***